DOI: https://doi.org/10.36719/2706-6185/36/47-50

**Rahilə Qurbanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
rahila.qurbanova@mail.ru

# ŞUMER-AKKAD VƏ MİSİR MİFLƏRİNDƏ KOSMOQONİK VƏ ANTROPOQONİK TƏMAYÜLLƏR

**Xülasə**

Təqdim olunan məqalədə Şumer-akkad və Misir miflərində kosmoqonik və antropoqonik ideyalar araşdırılmışdır. Bu miflərdə tanrılardan, kainatın yaranmasından və insanın mənşəyindən bəhs edilir. Şumer-akkad miflərində tanrılar insan cəmiyyətinin ilkin modeli kimi təsvir edilir.

Həmçinin “Annunakilər” və “Bilqamış dastanı” haqqında araşdırmalar aparılaraq qeyd olunur ki, annunakilər genetik manipulyasiyanın köməyi ilə xüsusi işçilər, *Homo sapiens*, yəni ağıllı insan yaradırlar. Bu ağıllı insanlara da öz bilik və bacarıqlarını öyrədirlər. Mifologiya bəşər yaradıcılığının ən qədim forması olub, həyatın və insanın yaranması haqqında düşüncə və təsəvvürləri özündə ehtiva edən dünyagörüşüdür.

***Açar sözlər:*** *mifologiya, mif, tanrı, kainatın yaranması, insanın mənşəyi, annunakilər, itaət etmək, əbədi həyat, kahin*

**Rahila Gurbanova**
Azerbaijan State Pedagogical University
rahila.qurbanova@mail.ru

## Cosmogonic and anthropogonic tendencies in Sumerian-Akkadian and Egyptian myths

**Abstract**

The presented article shows that cosmogonic and anthropogonic ideas were explored in Sumerian-Akkadian and Egyptian myths. These myths tell about the gods, the creation of the universe and the origin of man. In Sumerian-Akkadian myths, the gods are depicted as the original model of human society.

Research is also being conducted on “The Annunaki” and “The Saga of Bilgamish” and it is noted that the Annunaki, using genetic manipulation, create special workers, namely *Homo sapiens*, intelligent people. They also teach these smart people their knowledge and skills. Mythology is the oldest from of human creativity, a worldview that includes thoughts and ideas about the creation of life and man.

***Keywords:*** *mythology, myth, god, creation of the universe, origin of man, Annunaki, obey, eternal life, priest*

## Giriş

Şumer-akkad və Misir miflərində kosmoqonik və antropoqonik ideyalar əsas yer tutur. Bu miflər tanrılardan, kainatın yaranmasından, strukturundan, insanın mənşəyindən bəhs edir. Şumerlərin inancına görə, bütün tanrılar ilkin okean ilahəsi Nammudan yaranmışdır. Nammu isə birinci səma tanrısı Anı və torpaq tanrısı Kini, sonra bütün tanrıları yaratmışdır. Bütün tanrıların atası isə An hesab edilir, digər tanrılar isə onun övladlarıdır.

Kosmoqonik və antropoqonik təmayüllər miflərdə, ayrı-ayrı ədəbi əsərlərdə və himnlərdə toplanmışdır. Şumerlərin inancına görə, yer yastı disk formasındadır, göy isə boş məkan olub, aşağıdan və yuxarıdan möhkəm səthə söykənmişdir. Yer və göy arasında isə üçüncü element olan “efir”, yəni “külək” – “hava”, “ruh” yerləşir. “Göy-Yer” aşağıdan və yuxarıdan, hər iki tərəfdən ucsuz-bucaqsız okeanla əhatə olunmuşdur. Şumerlər okeanın “birinci hərəkətverici” qüvvə olduğunu təsəvvür edirdir, lakin onun zaman və məkan daxilində mövcud olması haqqında

fikirləşmirdilər. Onların fikrinə görə, əvvəl atmosfer, atmosferdən isə işıq verən cisimlər – günəş, ay, planet və ulduzlar yaranmışdır. "Göy" yerdən ayrıldıqdan sonra bitkilər, heyvanlar və nəhayət, insan yaranmışdır. S. N. Kramer "Tarix şumerlərdən başlayır" əsərində yazır: "Göy yerdən ayrıldıqdan sonra göy tanrısı An göyləri qaldırdı, hava tanrısı Enlil isə yeri endirdi" (Kramer, 1985: 43).

Şumer-akkad miflərində dünyanın yaranması, quruluşu, insanın yaradılması, tanrılar haqqında, onların istəkləri, xeyir-duaları, xeyirxah əməlləri, dava-dalaşları, lənətləri, yaradıcı və dağıdıcı fəaliyyətləri, bəzən də hakimiyyət uğrunda apardıqları mübarizələr əks olunmuşdur.

Şumer-akad miflərində yüzlərlə tanrılar içərisində baş tanrılar və ikinci dərəcəli tanrıların olduğu göstərilir. Baş tanrılar səma tanrısı An, hava tanrısı Enlil, su tanrısı Enki və ilahə – ana Ninti (Ninhursaq) idi. Qalanları isə ikinci dərəcəli tanrılar hesab edilirdi. Bu dörd tanrı tanrılara rəhbərlik edir və onlarla birlikdə kainatı idarə edirdilər

Şumer-akkad miflərində xeyirxahlıq, ədalət, həqiqət, qayda-qanun, azadlıq, mərhəmət və s. kimi keyfiyyətlər yüksək qiymətləndirilirdi. Şəri, bəd əməlləri, özbaşınalığı, yalanı, haqsızlığı, amansızlığı qəbul etmirdilər, bu cür keyfiyyətləri pis qiymətləndirirdilər. Şumerlərin inancına görə, böyük tanrılar öz təbiətlərinə görə xeyirxahdırlar. Lakin şər, yalan, zorakılıq, bir sözlə, bütün qüsurlar yaradılan tanrılar tərəfindən insanların həyatına daxil edilmişdir. Şumer miflərində insanlara xas olan bütün xüsusiyyətlər və keyfiyyətlər tanrılara da aiddir (Kramer, 2002).

Deməli, Şumer-akkad miflərinda tanrılar insan cəmiyyətinin ilkin modelidir, onlar da bugünkü insanlar kimi yaşamış, ev-eşik təmizləmiş, övlad dünyaya gətirmiş və tərbiyə edib böyütmüşlər. Eyni zamanda əkinçilik və maldarlıqla da məşğul olmuş, evlər tikmiş, kəndlər, qəsəbələr, şəhərlər salmışlar.

Bizə məlum olan Şumer-akkad mifləri b.e.ə. 2000-ci ildən sonra yazılmışdır. A. Şükürov yazırdı: "Həmin dövrdə sülhpərvər xalq olan şumerlər özlərindən mədəni cəhətdən geridə qalan xalqlar tərəfindən əsarət altına alınmışlar. Hammurapi çoxlu sayda şəhər dövlətləri tez bir zamanda işğal edərək böyük bir dövlət yarada bilmişdir. "Böyük inzibatçı" böyük imperiya yaradaraq öz dilini rəsmi dilə çevirmişdir. Bu isə Şumer sivilizasiyasına öldürücü zərbə vurmuşdur. Şumer mifologiyasını mənimsəmiş Şumer allahlarının adını dəyişsə də, öz fəaliyyətlərini davam etdirmişlər" (Şükürov, 1995: 67).

Bəzi mənbələrə və aparılan arxeoloji qazıntılara görə, Yerdə həyatın və insanın yaranması başqa planetdən gələnlər tərəfindən yaradıldığı göstərilir. Hətta şumerlərin inancına görə, onlar başqa planetdən gələnlər, yəni annunakilər tərəfindən yaradılmışlar.

Şumerlər dünyanın ən qədim sivilizasiyalarından biridir və eyni zamanda ilk xalqdırlar. Şumerlərin başqa planetlərdəki varlıqlarla təmasda olması e.ə. 4500 il əvvələ aid edilən Şumer gil lövhələrində Günəş sistemindən göydən enən tanrılar kimi təsvir edilmişdir. Müəyyən mənbələrə görə, annunakilər başqa planetlərdən Yerə qızıl çıxarmaq məqsədi ilə gəlmişdir. Onlara işçi qüvvəsi lazım olduğu üçün insanı yaratmışlar.

Arxeoloji qazıntılar zamanı tapılan Şumer gil lövhələrində astronomiya və riyaziyyata aid minlərlə mətnlər tapılıb ki, bu mətnlərdə mürəkkəb fiqurların sahəsinin tapılması, kökün öyrənilməsi, tənliklərin həlli qeyd edilmişdir. Şumerlər çox mürəkkəb hesablama sistemindən istifadə etmişlər. Buradan belə nəticəyə gəlmək olur ki, şumerlər bu tip elm və bilikləri yadplanetlilərdən öyrənmişlər (Şükürov, 2005).

1920-ci ildə Bakıda doğulan, 2010-cu ildə Nyu-Yorkda vəfat edən amerikalı arxeoloq Zəkəriyyə Sitçin, şumerlərin insanlardan daha üst səviyyədə olan varlıqlarla təmasda olduğunu iddia etmişdir. Bu iddiaya ABŞ-nin Tula Universitetinin fəlsəfə elmləri üzrə professoru olan Mişel Zimmerman da qoşulmuşdur. Professora görə, şumerlərin "Tanrılar" adlandırdıqları "Annunakilər", əslində, yadplanetlilərdir.

Qədim Şumer gil lövhələrində annunakilərin hündürboylu olduğu göstərilir. Ona görə də şumerlilər onları "Tanrı" adlandırırdılar. Tanrılar, yəni annunakilər genetik manipulyasiyanın köməyi ilə xüsusi işçilər, Homo sapiens, ağıllı insan yaradırlar. Bu ağıllı insanlara da öz bilik və bacarıqlarını öyrədirlər. Qədim Şumer gil lövhələrində bildirilir ki, insanlar arasında ilk kahin

Enmeduranki olmuşdur. O, annunakilər tərəfindən xüsusi şuraya dəvət edilib, ona yerin və göyün sirləri öyrədilmişdir. Ona bütün sirli biliklər öyrədildikdən sonra annunakilər tərəfindən yenidən yerə qaytarılmışdır (Eliade, 1996).

Zaman keçdikcə annunakilər ilə bu insanların qovuşma prosesi başlayır və onların ortaq uşaqları dünyaya gəlir. Hətta "Bilqamış haqqında dastan"da Bilqamışın yarı tanrı, yarı insan olduğu göstərilir.

"Bilqamış haqqında dastan" Şumer sivilizasiyasının maddi mədəniyyət nümunəsidir. Bilqamış təxminən e.ə. 2800-2700-cü illərdə yaşamışdır. Bu dastan Bilqamışın ölümündən təxminən 1000 il sonra yaranmışdır. Bilqamış Uruk şəhərinə hökmranlıq edən sülalənin beşinci hökmdarı olmuşdur. Bu dastan təqribən e.ə. IV-II minillikdə dörd dildə – şumer, akkad, huri və hett dillərində mixi yazı ilə 12 gil lövhə üzərinə yazılıb və dövrümüzə qədər gəlib çatmışdır. Bilqamış sözünün mənası "hər şeyi bilən insan" deməkdir. Bilqamış xeyirxah, qəhrəman, yaxşı dost, dostunun taleyini, aqibətini düşünən, qorxmaz insan kimi təsvir olunur və eyni zamanda insanların əbədi həyatı, ölməzliyi, arzu və düşüncələri, onların həyatı və məişəti dastanda geniş şəkildə əks olunmuşdur. İnsanı narahat edən bütün fikirlər bu dastanın əsasını təşkil edir (Rak, 2004).

Tanrıların, dünyanın və insanın yaranması ilə bağlı miflərin əksəriyyəti qədim zamanlarda qəbilə-tayfa münasibətlərinin hökm sürdüyü Nil vadisində yaranmışdır. Çünki qədim zamanlardan insanlar Nil çayı ətrafında yaşamışlar. B.e.ə. IV minillikdə Nil çayının aşağı və yuxarı torpaqları birləşərək vahid Misir dövləti yaranmışdır. Həmin dövrdən də Misir fironların hakimiyyəti altına düşmüşdür. İnsanlara elə gəlirdi ki, fironlar "Tanrının oğlu" olduğu üçün hakimiyyəti idarə etmək də yalnız onlara məxsusdur. Çünki fironların tanrılar tərəfindən müəyyən edilməsinə inanırdılar.

Qədim Misirlilər inanırdılar ki, tanrılar hər şeyə qadirdilər, onlar bu dünyada, hətta ölümdən sonra da insanlara həmişə kömək edirlər. Misir mifologiyasında tanrlar və ilahələr yarı insan, yarı heyvan kimi təsvir edilirdi. Qədim Misir miflərində çoxlu tanrılar və ilahələr təsvir edilir. Bunların sayı 1500, bəzi mənbələrdə isə 2000 olduğu göstərilir və hər tanrının da öz vəzifəsi olduğu haqqında məlumat verilir (Rak, 2007).

Misirlilər tanrıları heyvan başlı insan şəklində təsəvvür edirdilər. Bu tanrılar zaman keçdikcə bir-biri ilə çeşidli yollarla birləşdirilir. Əvvəl heyvanlar tanrılaşdırılıb, sonra isə insan formasını alırdı. Ona görə də Misir tanrıları heyvan başlı, insan bədənli təsvir olunurdu (yırtıcı quşlar, ilan, timsah, çaqqal, qoyun, it, pişik, ev heyvanları və s.). Heyvanlar insanların həyatının ayrılmaz hissəsi kimi dəyərləndirilirdi və hər hansı tanrının obrazı ilə eyniləşdirilirdi. Misir mifologiyasında göstərilir ki, tanrılar insanlar kimi həyat tərzi keçirirdilər. Onlar da ova çıxır, məhsul yığır, yeyib-içir, sevir və nifrət edirdilər. İnsanlar bu tanrılara ibadət edir və onların qulluğunda dururdular.

Misir mifologiyasında ilk tanrıların yaranması haqqında deyilir ki, heç bir varlıq olmamışdan öncə xaos və qaranlıqla örtülmüş sonsuz, hərəkətsiz soyuq su səthi olmuşdur. Xaosu Nun adlandırırdılar. Minilliklər keçəndən sonra tanrı Nun Ben-Ben təpəsini (Atmanı) yaradır. Atma isə tanrıları yaratmağı düşünür və hava tanrısı Şunu və nəmişlik tanrısı Tefnutu yaradır. Yer tanrısı Geb və səma ilahəsi Nut onların törəməsi olmaqla, Osiris, İsida, Set və Neftidunu yaratmışdırlar. Beləliklə, tanrılar, ilahələr yaradılmışdı. Baş tanrı və bütün varlığın yaradıcısı Ra hesab edilirdi. Misirlilərin inancına görə, Günəş tanrısı Ra dünyanı, insanları, heyvanları və bitkiləri yaratmışdır (8).

Qədim Misirlilər dünyanın və insanların həyatının tanrılar tərəfindən idarə olunmasına, eyni zamanda axirət dünyasına, ruhun varlığına inanırdılar. Onların inancına görə, ölən insanın cəsədi harada saxlanırsa, onun ruhu da həmişə ora gələr. Bu məqsədlə ölmüş insanların meyitlərini mumiyalayırdılar. Bu da ölümdən sonrakı əbədi həyata inamdan irəli gəlirdi. Misirlilərin etiqadına görə, ruh yaşayır, ölən insan həyatda kimdirsə, öləndən sonra da həmin insan olur. Buna görə ölən insanın yanına onun istifadə etdiyi əşyalarını qoyur, hətta ölən insanın heyvanlarını da mumiyalayıb dəfn edirdilər. Misirlilərə görə, ölüm insanın yox olması deyil, onun sadəcə olaraq başqa aləmə, əbədi həyata qovuşmasıdır. Ölən insan həyatını axirət dünyasında davam etdirir. Odur ki misirlilər ölmüş insanın başqa aləmdə əbədi həyatını təmin etməyə çalışırdılar. "Misirlilərə görə, axirət səltənətində hər şey boldur. Lakin hər bir adamın ruhu bu səltənətə getmir. Ölənlərin ruhunu Osiris

mühakimə edir. O, Allahın iradəsi əleyhinə gedənlərə çox böyük amansızlıq göstərir. Belələrinin ruhunu müdhiş, yırtıcı heyvanlar yeyir" (Şükürov, 1995: 20).

İnsanlar tanrıların qoyduqları qanunlara ciddi əməl edirdilər, çünki onlardan qorxurdular. Hökmdarların tanrı tərəfindən müəyyən edildiyinə və Fironun tanrı Ranın oğlu olduğuna inanırdılar. Firon tanrının oğlu olduğu üçün ona itaət edirdilər və şərəfinə qurbanlar kəsirdilər. Tanrılar üçün evlər tikilirdi, bu evləri də məbəd adlandırırdılar. Məbədlərə isə kahinlər rəhbərlik edirdilər. Misirdə kahinlər böyük nüfuz sahibi idilər. Orada tanrıya inam, pərəstiş daha güclü idi, daha çox da Günəş tanrısı Raya. Ra və Osiris haqqında miflər daha çoxdur. Günəş tanrısının yaranması ilə əlaqədar bir sıra əfsanələr mövcuddur. Bəzi miflərdə göstərilir ki, Ra günəşi və dünyanı yaradan ana ilahənin oğludur. Ona görə də ona "günəşin oğlu" deyirdilər və fironun şəxsiyyətini ilahiləşdirirdilər. Ona yer üzünün tanrısı kimi sitayiş və itaət edirdilər.

Misirlilərin ölüm probleminə və axirət dünyasına inamı ilə bağlı olaraq, mumiyalanma mədəniyyəti inkişaf etmişdir. Bu da Osirislə bağlı miflərin yaranmasına səbəb olmuşdur. Misir miflərindən olan rəvayətlərin birində göstərilir ki, Osiris Set tərəfindən öldürülür və 14 hissəyə ayrılıb Misir ərazisinə atılır. Osirisin cəsədi Ra tanrısının tapşırığı ilə İsida tərəfindən toparlanaraq yenidən insan halına qaytarılır. Osiris dirildikdən sonra axirət dünyasının, yəni yeraltı səltənətin tanrısı olur (Sitçin, 2023).

Ümumiyyətlə, Misirdə ictimai münasibətlərin inkişaf etməsi və qədim misirlilərin dünyanın dərk etməsi ilə əlaqədar olaraq, Misir miflərində də bir sıra dəyişikliklər olmuşdur. Hər bir padşahlıq dövrünün öz tanrısı, öz mifologiyasi yaranmış və inkişaf etmişdir. Misir mifləri zəngin olduğu qədər həm mürəkkəb, həm də ziddiyyətli xarakterdədirlər.

Şumer-akkad miflərindən fərqli olaraq, Misir mifologiyası tanrıların hakimiyyət uğrunda apardıqları müharibələrdən, əbədi həyatdan, axirət dünyasına inamdan, ölümsüzlükdən və ruhun əbədiliyindən bəhs edir.

## Nəticə

Mifologiya bəşər yaradıcılığının ən qədim forması olub, həyatın və insanın yaranması haqqında düşüncə və təsəvvürləri özündə ehtiva edir. Eyni zamanda insanın, dünyanın və kainatın necə yarandığı, tanrılarla insanların bağlılığı, həyat və ölüm kimi əsas sualları özündə əks etdirir. Mifologiya bir xalqın tarixini, inanclarını, qadağalarını, əxlaq və davranış normalarını əsas bir qaynaq olaraq özündə əks etdirməklə keçmişi, bu günü, gələcəyi özündə birləşdirən dünyagörüşüdür və dəyişməzdir, yarandığı gündən bu günə qədər olduğu kimidir, əcdadlarımızın nəsildən-nəsillərə ötürülən əxlaq qanunlarının, dəyərlərin məcmusudur. Şumer-akkad və Misir mifləri xalqın mifik təfəkkürünü və həmin miflərdə rüşeym kimi yatan fəlsəfi düşüncə tərzini özündə yaşatmaqdadır.

## Ədəbiyyat


1. Kramer, S. N. (1985). Istoriya nachinayetsya v Shumery. Moskva: Nauka, 257 s.
2. Kramer, S. N. (2002). Shumery. Pervaya tsivilizatsiya na Zemle. Moskva: "ZAO" Tsentrpoligraf, 383 s.
3. Şükürov, A. (1995). Mifologiya. II cild. Bakı: Elm, s. 204.
4. Şükürov, A. (2005). Qədim Şərq fəlsəfəsi və filosofları. Bakı.
5. Eliade, M. (1996). Mify. Snovideniya. Misterii. Moskva: «Refl-buk»; «Vakler».
6. Rak, I. V. (2004). Yegipetskaya mifologiya. Terra.
7. Rak, I. V. (2007). Mify drevnego Yegipta. Yekaterinburg: U. Faktoriya, 400 s.
8. Şumer Tabletləri: Tanrı Enkinin sözləri. https://mustafaat.wordpress.com/2017/10/10/sumer-tabletleri-tanri-enkinin-sozleri/
9. Sitçin, Z. (2023). On ikinci planet. İstanbul: "Ruh və maddə" nəşrləri, 460 s.


Göndərilib: 01.04.2024 Qəbul edilib: 07.06.2024